MƏDƏNİYYƏT DÜNYASI
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVII buraxılış, Bakı, 2025
МИР КУЛЬТУРЫ
Азербайджанский государственный университет культуры и искусств, XLVII выпуск, Баку, 2025
THE WORLD OF CULTURE
Azerbaijan State University of Culture and Arts, XLVII edition, Baku, 2025

**UOT 745/749**
**ORCID: https://orcid.org/0009-0006-6190-9594**
**https://doi.org/10.52094/2221-7584.2025.47.016**

**Abbasova Nigar İlqar qızı**
**Azərbaycan Rəssamlıq Akademiyasının doktorantı**
**abbasovan036@gmail.com**

# QARABAĞ MİLLİ GEYİMİNİN ÖYRƏNİLMƏSİNİN AKTUALLIĞI BARƏDƏ

**Xülasə**: Məqalədə geyim mədəniyyətinin öyrənilməsinin aktuallığını əsaslandırılaraq, Azərbaycanın tarixi-coğrafi və tarixi-etnoqrafik bölgələrindən biri olan Qarabağ geyiminin öyrəniməsinin zəruriliyi müəyyən edilir. Məqalənin məqsədi geyimin milli mədəniyyətin obyekti kimi xalqın tarixi, adət-ənənələri ilə sıx bağlı olduğunu nümayiş etdirmək, etnik kostyumun hər hansı bir xalqın mənəvi-estetik imkanlarının öyrənilməsi üçün qiymətli mənbə olduğunu isbat etməkdir. Bundan başqa, müəllifin qarşısıda duran mühüm vəzifələrdən biri də Qarabağ milli geyimlərinin forma və detallarının əsas növlərinin formalaşmasının qanunauyğunluğunu tədqiq edib, Azərbaycanın bu bölgəsinin geyiminin bədii xüsusiyyətini və dekorativ-tətbiqi incəsənətin ümumi inkişafını, habelə xalqın idealları və dünyagörüşü ilə bağlılığını müəyyənləşdirməyə imkan yarada bilən fenomen kimi təqdiqidir.

Tədqiqatdan alınan mühüm qənaətə görə, Qarabağın geyim mədəniyyəti və dekorativ-tətbiqi sənəti etnodizayn, simvoliklik və funksionallıq aspektlərindən müfəssəl elmi araşdırmanın obyekti olmamışdır. Bu baxımdan Qarabağ milli geyiminin təkamül tarixinin kompleksli öyrənilməsinin aktuallığı zəruridir.

Tədqiqatda yeni reprezentsiya metodunun tətbiq edilməsi milli geyimin xalqın mənəvi-estetik dünyagörüşünün öyrənilməsində bədii-tarixi mənbə kimi təqdim edilməsinə imkan yaratmışdır. Xalq geyiminin etnodizaynın təzahürü kimi təhlil edilməsində Azərbaycanın görkəmli sənətşünas-alimərinin elmi-nəzəri baxışlarına müraciəti şərtləndirmişdir. Məqalədən alınan mühüm qənaətlər Azərbaycan incəsənət tarixinə, o cümlədən Qarabağın sosio-mədəni

inkişaf fonunda milli irsimizin, o cümlədən dekorativ-tətbiqi sənətinin təkamülünə həsr olunan tədqiqatlara elmi-nəzəri zəmin ola bilər. Bundan başqa, analitik material Azərbaycan incəsənəti və mədəniyyəti tarixi fənlərinin tədrisində, maarfləndirici tədbirlərdə nəzəri mənbə kimi istifadə oluna bilər.

**Açar sözlər:** Qarabağ, geyim, mədəniyyət, aktuallıq, tədqiq.

## Giriş

Qarabağın 30 illik işğaldan azad edilməsindən sonra Müstəqil Azərbaycan elmində sovetlər dönəminin ideoloji buxovlarından sərbəst şəkildə bu diyarın mədəniyyətinin və incəsənətinin öyrənilməsi sahəsində yeni tarixi səhifə açmış olur. Yeni tarixi reallıq Qarabağ dekorativ-tətbiqi sənətinin, o cümlədən milli geyiminin araşdırılması sahəsində həm məzmun, həm də keyfiyyət baxımından yeni üfüqlər açır. Qarabağ milli geyiminin öyrənilməsinin aktuallığının refleksiyasına həsr olunan elmi məqalənin zəruriliyi milli irsin təcəssümü olan dekorativ-tətbiqi sənətin öyrənilməsinə motivasiya verməklə məsələni gündəmdə saxlanılmasına olan etiyac ilə diktə olunur.

Düzdür, Azərbaycan xalq (milli) geyimi maddi mədəniyyət obyekti kimi öyrənilməsi ilə bağlı çox işlər görülmüşdür. Maddi mədəniyyətin geyim istehsalı növünün və onunla bilavasitə bağlı olan dekorativ-tətbiqi incəsənətin ayrı-ayrı növlərinin tədqiqat metodologiyası nöqteyi-nəzərindən araşdırılması müxtəlif sahələr üzrə Azərbaycan və xarici mütəxəssisləri: etnoqraflar, tarixçilər, mədəniyyətşünaslar, sənətşünaslar tərəfindən aparılmışdır. Bu baxımdan, mənbələrin siyahısı kifayət qədər genişdir. “Xalq geyimi” fenomeninə ilk dəfə maraq göstərən alim-tədqiqatçıların: Arif Mustafayevin (Мустафаев. А., 1991), Rasim Əfəndiyevin (Əfəndiyev.R., 1984), Sabirə Dünyamalıyevanın (Dünyamalıyeva.S., 2003), Sevil Sadıxovanın (Садыхова. С., 2007) və başqalarının əsərləri qiymətli xəzinədir. Lakin onu da qeyd etməliyik ki, Fəzail Vəliyevin və Gülzadə Abdulovanın “Qarabağ geyimləri” kataloqu (Vəliyev.F., Abdulova, G., 2016) istisna olmaqla, Azərbaycanın dilbər guşəsi olan Qarabağın geyim mədəniyyəti və zərgərlik sənəti elmi-tədqiqat obyekti olmamışdır.

Bu baxımdan günümüzədək respublika muzeylərində və şəxsi kolleksiyalarda saxlanılan həm təsviri incəsənət abidələrindən, həm də ayrı-ayrı

geyim nümunələri və onların hissələrindən əldə edilə biləcək Qarabağ geyiminin inkişafı ilə bağlı konkret məlumatların kompleks şəkildə nəzərdən keçirilməsini labüdləşdirir.

Milli geyimlərin etnodizayn, simvoliklik və funksionallıq baxımındam öyrənilməsi üçün Yefremova və Savelyevanın nəzəri konseptləri məqalənin yazılmasında metodoloji zəmin rolunu oynadılar. Milli geyimlərin müasir dizaynda ahəngdar şəkildə tətbiqi metodologiyasına dair həmin tədqiqatlar

məqalənin əsas məqsədini təyin etdi. Araşdırmamızın başlıca məqsədi Qarabağ milli geyiminin öyrənilməsinin aktuallığını və zəruriliyini konseptual şəkildə əsaslandırmaqdan ibarətdir. Məqalədə ilk dəfə olaraq Qarabağ milli geyiminın öyrənilməsinin zəruriliyi ilk dəfə üç aspektdə şərh edilir:

1. Qarabağ milli geyimi xalq mədəniyyətini əks etdirən bədii yaradıcılıq sahəsi kimi;
2. Kostyumun mədəniyyətdə simvolikliyi və funksionallığı;
3. Xalq geyimi etnodizayn kontekstində.

Araşdırma prosesində əldə olunan elmi qənaətlər Azərbaycan incəsənət tarixinin, o cümlədən Qarabağın xalq yaradıcılığı sahəsi olan dekorativ-tətbiqi sənətinin daha geniş və miqyaslı şəkildə öyrənilməsi üçün motivasiya və stimul rolunu daşıya bilər.

**Qarabağ milli geyimi xalq mədəniyyətini əks etdirən bədii yaradıcılıq sahəsi kimi.**

Müasir dövrdə xalqın çoxəsrlik təcrübəsinə, onun mənəvi irsinə müraciət edilməsinin zəruriliyi təbii sərvətlərin və ekoloji tarazlığın qorunması kimi ən kəskin ekoloji problemlərin həllindən heç də az əhəmiyyət kəsb etmir. Milli mənəviyyatın təcəssümü olan dekorativ-tətbiqi sənət xalqın məişəti və gündəlik həyatının, tarixi təcrübəsinin və mənəvi axtarışlarının bir növ ümumiləşdirilməsi və dərk edilməsi kimi formalaşır, habelə müəyyən münasibətlərdə ifadə olunur.

Qarabağ Azərbaycanın tarixi-coğrafi və tarixi-etnoqrafik rayonlarından biri kimi Cənub-Şərqdən Kür və Araz çaylarının qovuşduğu yer, cənubdan Araz çayı, qərbdən Qarabağ silsiləsi və Göyçə gölü ilə, şimaldan Kür və Goran çayları ilə həmsərhəddir. Tarixçi-etnoqraf H.Xəlillinin qeyd etdiyi kimi, Qarabağ müxtəlif torpaq və bitki örtüyü, münbit təbiəti ilə bəşər sivilizasiyasının yayılma

mərkəzlərindən birinə çevrilib, bunu dünyada məşhur olan Azıx və Tağlar ibtidai ərazilərindəki arxeoloji tapıntılar sübut edir. Hətta paleolitdə burada daimi əhali var idi. Bütün bunlar bu yerlərdə zəngin maddi-mənəvi mədəniyyətin inkişafına xidmət edirdi ki, onun tərkib hissələrindən biri də geyim və zinət əşyalarıdır (Велиев, Ф., Абдулова, Г., 2016).

Azərbaycanın ayrılmaz tərkib hissəsi – Qarabağ tarixi-etnoqrafik zonasının çoxəsrlik zəngin sənətkarlıq irsi xalqın empirik bilik və bacarıqları hesabına təkamül etmişdir. Bu baxımdan Qarabağın geyim mədəniyyəti xalqın canlı milli yaddaşıdır, keçdiyi yolun təcəssümü və təkrarolunmaz mənəvi təcrübəsidir. Qarabağ dekorativ-tətbiqi sənət növlərinin bir çoxu adət-ənənə və

ya tarixi artefaktlar şəklində günümüzə qədər gəlib çatmışdır. Düzdür, şəxsi və ya muzey kolleksiyalarında qorunan, habelə vizual sənət nümunələrində əks olunan Qarabağın tarixi geyimləri, kostyumları ilk baxışdan arxaik, donmuş ritual, formanın təntənəsinə bənzəyə bilər. Lakin Qarabağın tarixi geyimlərini və aksessurlarını detallı şəkildə öyrənməyə başlayanda zaman və nəsillər arasında görünməz mənəvi körpü yaranır. Dekorativ-tətbiqi sənətin növü olan milli geyimdə Qarabağ elinin əsas mənəvi dəyərləri: ailə həyat tərzinin, dini baxışlarının, təbiətə münasibətinin və s. xalq yaradıcılığında əksini tapmışdır. Xalq yaradıcılığı toplumun mənəvi simasını, daxili dünyasını ən dolğun şəkildə əks etdirir ki, onun öyrənilməsi aktual məsələyə çevrilir.

Bundan başqa, elmi-texniki tərəqqi nəticəsində kütləvi mədəniyyətin, məişət və maliyyə-təsərrüfat fəaliyyətinin artan depersonalizasiyasına, eyniliyinə, özünəməxsusluğuna reaksiya ilə əlaqədar olaraq, keçmiş dövrlərin tarixinə, o cümlədən milli geyimə maraq yaranır. Kostyum fenomeninə müraciətin aktuallığı onun əsas invariant xüsusiyyətlərini müəyyən etmək ehtiyacı ilə əlaqələndirilir. Məhz onlar bizə kostyumun utilitar və simvolik funksiyalarının ansamblını, bu mürəkkəb mədəni fenomenin xüsusiyyətlərini və onun fəaliyyət xüsusiyyətlərini aydınlaşdırmağa və müəyyən etməyə imkan verir. Geyimin simvolik funksiyalarının təhlili artan urbanizasiya və həyatın intensivləşməsi fonunda xüsusilə aktualdır.

**Kostyum fenomeni: utilitar və simvolik funksiyaları.**

Folklor bizim mənəvi sərvətimiz, ekoloji mühitimizdir ki, insanın öz

xalqının tarixi-mənəvi irsi ilə təbii əlaqələrinin qorunub saxlanmasını və bərpasını tələb edir. Xalq yaddaşı əsrlərin irsinin xüsusiyyətlərinin əksi kimi ənənəvi geyimin canlı simvolizmini dövrümüzə gətirmişdir (Mustafayev. A., 1991, s. 10).

Kostyum sosial təbəqələrin gündəlik həyatının simvolu, işarəsi, xarici elementidir. İşarələr sistemi həmişə tarixidir və müəyyən bir cəmiyyətdə, müəyyən sosial-mədəni qrup daxilində yaranır və həmişə emosionaldır və bəzən məntiqə ziddir.

Geyimin kompozisiyası, kəsimi, ornament xüsusiyyətlərinin formalaşması coğrafi mühit və iqlim şəraiti, təsərrüfat quruluşu, məhsuldar qüvvələrin inkişaf səviyyəsi ilə müəyyən edilir. Əhəmiyyətli faktorlar arasında geyimin xüsusi formalarının yaradılmasına töhfə verən tarixi və sosial proseslər mühüm rol oynamışdır. Kostyumun mədəniyyətdə fəaliyyətinin çoxvariantlılığında, eləcə də mədəni-tarixi inkişaf dinamikasında daimi iştirakında nəzərə alınması geyimdən mədəniyyətin bir növ universalı kimi danışmağa imkan verir. Onun təzahürünün spesifikliyi mədəniyyətin mövcudluğunun müxtəlif mərhələlərinin xüsusiyyətlərini ifadə edir. İncəsənət tarixi çərçivəsində kostyum estetik, bədii əhəmiyyətli bir hadisə kimi qəbul edilir. Lakin, bir qayda olaraq, bədii tarixi təhlilin obyekti müasir deyil, geyimin tarixi formalarıdır. Simvol müəyyən xüsusiyyətlərə və funksiyalara malik olan "kostyum" informasiya-işarə sisteminin məna yaradan elementidir. Sözün ciddi mənasında, kostyumun simvolik funksiyalarına sırf utilitar olanlar istisna olmaqla, onun bütün funksiyaları daxildir. Lakin sözün daha geniş mənasında utilitar funksiyalar da çox spesifik simvolik yük daşıyır.

**Xalq geyimi etnodizayn kontekstində.**

Müasir cəmiyyətdə xalqın tarixi, əxlaqi və mənəvi təcrübəsini əks etdirən xalq yaradıcılığı nümunələrinin qorunması və öyrənilməsinin aktuallığını müəyyən edən xalq mədəniyyətinə maraq var. Xalq sənətinin ən maraqlı sahələrindən biri ahəngdar şəkildə uzlaşdırılmış geyim, ayaqqabı və aksessuarlardan ibarət ansamblı olan xalq geyimidir. Müasir tədqiqatçılar xalq geyimində estetik, utilitar və texnoloji-iqtisadi funksiyalar ilə onların bədii formada mükəmməl ifadəsi arasında heyrətamiz əlaqəni haqlı olaraq tapırlar ki,

bu da etnodizayn təzahürü kimi sənət tarixi üçün mühüm əhəmiyyət kəsb edir.

Xalq kostyumu mədəniyyətin vizual planını təmsil edən, insanın məkan və zamandakı mövqeyini qeyd edən kollektiv tərəfindən kodlanır. İçindəki hər şey semiotikdir: rəng, parça, bəzək. Xalq geyiminin özəlliyi onun mürəkkəbliyidir. Ənənələri dərindən öyrənmədən müasir incəsənətin istənilən növünün və janrının mütərəqqi inkişafı mümkün deyil.

Hazırda xalq yaradıcılığının böyük irsinə maraq durmadan artır. Milli özünüdərk səviyyəsinin yüksəldilməsi xalq mədəniyyətinin mənşəyi ilə tanış olmağı tələb edir ki, bu da öz növbəsində xalqın tarixi, əxlaqi və mənəvi təcrübəsini özündə cəmləşdirmiş xalq yaradıcılığı nümunələrinin qorunub saxlanılması və öyrənilməsi problemini aktuallaşdırır. Xalq sənətinin ən maraqlı sahələrindən biri geyim, ayaqqabı, aksesuar, saç düzümü və zərgərlik məmulatlarının ahəngdar şəkildə uzlaşdırılmış ansamblı olan xalq geyimidir. Xalq geyimi insanın sosial və fərdi xüsusiyyətlərini, onun milliyyətini, cinsini, yaşını, xarakterini, zövqünü ifadə edən ifadədir. Xalq geyimi müxtəlif sənət və sənətkarlıq növlərini, müxtəlif materiallardan ixtiraçılıqla istifadəni, yüksək estetik məziyyətləri, utilitar və təsərrüfat funksiyalarının mükəmməl həyata keçirilməsini üzvi şəkildə birləşdirən xalqın mənəvi və maddi mədəniyyətinin əvəzsiz abidəsidir.

Azərbaycan milli geyimləri xalqın maddi və mənəvi mədəniyyətinin uzun və mürəkkəb inkişaf prosesləri nəticəsində formalaşmışdır. Geyim xalqın tarixi ilə sıx bağlıdır, maddi mədəniyyətin bütün digər elementlərindən daha çox xalqın milli xüsusiyyətlərini əks etdirir və sabit etnik xüsusiyyətlərdən biridir.

Geyim xalqların etnogenez, mədəni-tarixi əlaqələri, qarşılıqlı təsirləri məsələlərini dərk etmək üçün köməkçi materiallardan biridir. Həm iqtisadiyyatın səviyyəsi, həm də coğrafi şəraitlə müəyyən edilir.

Geyim xalq yaradıcılığının etnoqrafik, tarixi, bədii xüsusiyyətlərini əks etdirir ki, bu da onun müəyyən formalarının, bəzəklərinin yaradılmasında və bədii tikmə, toxuculuqda özünü göstərir.

Geyim milli mədəniyyətin obyekti kimi onun xalqının tarixi, adət-ənənələri ilə sıx bağlıdır və onu yaradanının mənəvi-estetik imkanlarının öyrənilməsi üçün qiymətli mənbədir. Xalq (milli) geyim müasir geyim çeşidinin

inkişafının, yenilənməsinin və zənginləşdirilməsinin ən zəngin mənbəyidir.

Bütövlükdə xalq (milli) geyimi, ənənəvi milli mədəniyyətin ən dərin təbəqəsidir ki, müasir geyim tədqiqatçısı üçün çoxşaxəli elmi-yaradıcı mənbədir. Müasir tədqiqatçılar burada haqlı olaraq bu funksiyalar və onların bədii formada mükəmməl ifadəsi arasında heyrətamiz əlaqə tapırlar ki, bu da xalq geyimini sənət tarixi elmi üçün etnodizaynın çox mühüm təzahürü adlandırmağa haqlı olaraq imkan verir. Yalnız xalq geyiminin öyrənilməsinə çox bilik tələb edən bir hadisə kimi yanaşmaqla onun müasir dövr üçün əhəmiyyətini nəinki qorumaq, hətta deşifrə etmək olar (Савельева. И.Н., 1998, s. 106-109). Müasir geyimdə xalq (milli) adət-ənənələrin inkişafı problemini həll etmək üçün orijinal mənbəni bilmək xüsusilə vacibdir.

**Nəticə**

Beləliklə, araşdırmamızdan alınan mühüm nəticələri ümumiləşdirərək qeyd edə bilərik ki, Qarabağ milli geyimlərinin forma və detalların əsas növlərinin formalaşmasının qanunauyğunluğunun tədqiqi Azərbaycan bu bölgəsinin geyiminin bədii xüsusiyyətini və dekorativ-tətbiqi incəsənətin ümumi inkişafı planında xalqın idealları və dünyagörüşü ilə bağlılığını müəyyənləşdirməyə imkan yarada bilər.

Nəzərə alınmalıdır ki, Qarabağ geyiminin tədrici inkişafının, hər halda XIX əsrdə dəbin inkişafına təsir etmiş dekorativ-tətbiqi incəsənətin ayrı-ayrı növləri ilə üzvi surətdə əlaqələndiriməsi, xalq geyiminin struktur və kompozisiya xüsusiyyətləri hələ də deşifrə edilməmişdir. Ənənəvi Qarabağ kostyumunun kompozisiya və dizayn xüsusiyyətlərini üzə çıxaran xüsusi tətbiqi tədqiqatların olmaması müasir dizaynerlərin – rəssamların, dizaynerlərin, konstruktorların praktiki fəaliyyətini, eləcə də mütəxəssislərin hazırlanmasını çətinləşdirir. Deməli, müasir geyim modellərinin və dizaynlarının qurulması aspektində Qarabağ xalq geyiminin elementlərinin təhlili və təsnifatı metodunun hazırlanması aktual və müasirdir.

Nəzərə alsaq ki, hazırda Qarabağın zəngin mədəni irsinin tədqiqində yeni mərhələ geniş vüsət alıb qaldırdığımız problemin aktuallığı üzərində refleksiyamız bu sahədə tədqiqatların davam etdirilməsi baxımından metodoloji zəmin yaradır. Qarabağ geyiminin milli irs fenomen kimi, etnodizayn və

funksionallıq baxımıdan öyrənilməsinə dair təklif etdiyimiz nəzəri müddəalar sənətşünaslıq elmində ilk dəfə irəli çəkilir. Əldə olunan qənaətlərin nəzəri əhəmiyyəti koqnitiv xarakterli olmasında, problemin az öyrənilən tərəflərin aşkarlanmasına xidmət etməsindədir. Araşdırmanın tətbiqi əhəmiyyəti isə ondadır ki, təhlil materialı gələcək tədqiqatlar üçün zəmin olmaqla yanaşı milli irsimizin tədrisi, təbliği və təşviqində istifadə oluna bilər.

## Ədəbiyyat siyahısı

1. Dünyamalıyeva, S.(2003). *Azərbaycan geyim mədəniyyəti tarixi*. Bakı: Nağıl evi.
2. Əfəndiyev R. (1984). *Azərbaycan xalq sənəti*. Bakı: İşıq.
3. Mustafayev, A. (1991). *Azərbaycanda sənətkarlıq sənəti*. Bakı: Elm.
4. Vəliyev, F., Abdulova, G. (2016). *Qarabağ geyimləri. Kataloq.* Bakı: Elmin inkişaf fondu.
5. Велиев, Ф., Абдулова, Г. (t.y.). Как формировалась культура одежды в Карабахе. Azerhistory. URL: https://azerhistory.com/?p=28814
6. Ефремова, Л. (1985). *О культуре одежды.* Москва: Искусство.
7. Касумова, Э. История возникновения одежды и ее основные функции // Материалы IV научной конференции БГТКИ, – Баку: – 10 октября – 1997. – с. 226 -228.
8. Савельева, И. Теоретико-методические основы гармонизации народной одежды как источник современного дизайн-проектирования // Вторая Международная научная конференция Ч. I. Москва: –11-15 мая, – 1998, – с. 106-109.
9. Садыхова, С. (2007). *Азербайджанский костюм XIX века*. Баку: Элм.

**Аббасова Нигяр Ильгар гызы**

## Об актуальности изучения национального костюма Карабаха

### Резюме

В статье обосновывается актуальность изучения культуры одежды, выявляется степень необходимости изучения национального костюма

Карабаха, который является исконно историко-географическим и этнографическим регионом Азербайджана. Цель статьи продемонстрировать одежду как национальный культурный объект, тесно связанный с историей, обычаями, традициями народа. А также доказать тот факт, что этнический костюм может быть бесценным источником духовно-эстетического мировоззрения того или иного народа. Кроме того, другой немало важной целью исследования было изучить формирование форм и деталей национальной одежды Карабаха, выявить художественные особенности одежды данного региона. Задача исследователя выявить костюм как феномен, отражающий идеалы и мировоззрение народа. Согласно основному выводу, полученного в ходе исследования культура одежды Карабаха в предложенном нами аспектах этнодизайна, символичности и функциональности не была разработана в отечественном искусствоведении. С этой точки зрения, подчеркивается актуальность комплексного исследования национальной одежды Карабаха. Посредством метода репрезентации национальная одежда рассматривается как важный художественно-исторический источник изучения духовной культуры. Анализ национального костюма как элемента этнодизайна определила наше обращение к трудам видных отечественных и зарубежных искусствоведов. Результаты полученные в ходе исследования могут быть использованы в деле изучения истории искусства Азербайджана, в той частности национального достояния Карабаха, а также формирования теоретической базы изучения декоративно-прикладного искусства в свете социально-культурных процессов. Практическая значимость статьи определяется возможность использования аналитического материала в учебной и просветительской работе.

**Ключевые слова**: Карабах, одежда, культура, актуальность, изучение.

**Abbasova Nigar Ilgar**

## On The Relevance Of Studying The National Costume Of Karabakh

## Summary

The article substantiates the relevance of studying the culture of clothing, reveals the degree of necessity of studying the national costume of Karabakh, which is an original historical-geographical and ethnographic region of Azerbaijan. The purpose of the article is to demonstrate clothing as a national cultural object closely connected with the history, customs, traditions of the people. And also to prove the fact that ethnic costume can be an invaluable source of spiritual and aesthetic worldview of a particular nation. In addition, another important goal of the study was to study the formation of forms and details of the national clothing of Karabakh, to identify the artistic features of the clothing of this region. The task of the researcher is to identify the costume as a phenomenon reflecting the ideals and worldview of the people. According to the main conclusion obtained during the study, the clothing culture of Karabakh in the aspects of ethno design, symbolism and functionality proposed by us has not been developed in domestic art criticism. From this point of view, the relevance of a comprehensive study of the national clothing of Karabakh is emphasized. By means of the method of representation, national clothing is considered as an important artistic and historical source for studying spiritual culture. The analysis of the national costume as an element of ethno design determined our appeal to the works of prominent domestic and foreign art historians. The results obtained during the study can be used in studying the history of art in Azerbaijan, in particular the national heritage of Karabakh, as well as the formation of a theoretical basis for studying decorative and applied art in the light of socio-cultural processes. The practical significance of the article is determined by the possibility of using analytical material in educational and educational work.

**Key words**: Karabakh, clothing, culture, relevance, study.

***Məqalələrin redaksiyaya daxilolma tarixi: 29.04.2025***
***Məqalənin çapa qəbul olunma tarixi: 12.05.2025***